

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 212 (24.349)

*16 noyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər






Noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətləri, əsasən, musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və sairdir.

Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı "DOST EVİ" də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək.

Bildirildi ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialı Muğanlı-İsmayıllı yolunun 16-cı kilometrliyində yerləşir.

Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

"DOST EVİ" birmərtəbəli olmaqla, iki blokdan ibarətdir. Filialda 10 istiqamət üzrə 6 emalatxana – dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.

Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. Hazırda "DOST EVİ"ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir.

Diqqətə çatdırıldı ki, bölgədə yaşayan və "DOST EVİ"nə cəlb edilmiş əlilliyi olan şəxslər və digər həssas qrupların hazırladıqları sənətkarlıq nümunələrinin də burada nümayişi və satışı həyata keçiriləcək.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "DOST EVİ"ndəki emalatxanalarla tanış oldular.

"DOST EVİ" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək.

Qeyd olundu ki, filialda 50-80 nəfər benefisiar üçün 6 ay-2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək.

Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb edilərək ictimai iaşə xidmətləri təşkil olunacaq.

Burada qonaqlara ekoloji təmiz məhsullardan hazırlanan və milli kulinariya nümunələri olan keyfiyyətli qidalar, un məmulatları təqdim ediləcək. Filialın bio-market sahəsində ekoloji təmiz kənd təsərrüfatı məhsulları satılacaq.

Bir sözlə, "DOST EVİ" bölgədə yeni iş yerlərinin, o cümlədən əlilliyi olanlar, həmçinin digər həssas qrupların məşğulluq və gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına və təbliğinə, bölgədə turizm imkanlarının genişləndirilməsinə, ekoloji təmiz məhsulların satışına, keyfiyyətli iaşə xidmətlərinin göstərilməsinə dəstək verəcək.

İsmayıllı rayonunda belə bir müəssisənin yaradılması, eyni zamanda bu ərazinin abadlaşmasına imkan yaradıb.

"DOST EVİ" Muğanlı-İsmayıllı yolu ilə hərəkət edən insanlar, xüsusilə qonaqlar üçün gözəl asudə vaxt, istirahət və keyfiyyətli xidmətlər məkanı olacaq.

**AZƏRTAC**

## Ötən 20 ildə 15-dən çox yeni aylıq sosial ödəniş növü təsis olunub

***"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır"*** ideyası 20 il ərzində ölkəni regionda əhəmiyyətli iqtisadi-siyasi gücə çevirən Prezident cənab İlham Əliyevin həyata keçirdiyi daxili siyasətin ana xəttidir. Bu amil özünü il ərzində verilən fərman və sərəncamlarda, qəbul olunan qərarlarda, reallaşdırılan sosial layihələrdə göstərir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, ölkə Prezidenti tərəfindən imzalanan fərman və sərəncamlar ötən 20 il ərzində 15-dən çox yeni aylıq sosial ödəniş növünün təsis edilməsinə, habelə pensiya təminatında humanist yanaşmaların tətbiqi sosial təminat sisteminin əhəmiyyətli dərəcədə genişlənməsinə imkan yaradıb. Belə ki, dövlət başçısının şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısının təzahürü olaraq 2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ilin sentyabrından müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü təyin edilib. Ötən dövrdə həmin təqaüdün məbləği şəhid ailələri üçün 6 dəfə artırılaraq 100 manatdan 600 manata, müharibə ilə əlaqədar orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslər üçün 5,6 dəfə artırılaraq 90 manatdan 500 manata, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə (II dərəcə) əlilliyi olan şəxslər üçün 5,7 dəfə artırılaraq 70 manatdan 400 manata, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə (III dərəcə) əlilliyi olanlar üçün 6,6 dəfə artırılaraq 50 manatdan 330 manata çatdırılıb. Təqaüdlərlə yanaşı, həmin kateqoriyalardan olan şəxslər aylıq pensiya və müavinətlərlə də təmin edilirlər. Həmçinin Prezidentin daha bir xüsusi qayğısı olaraq onlarla bağlı son illərdə yeni mühüm sosial dəstək proqramları – 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailələrinə və həmin tarixədək hərbi xidmət zamanı aldığı xəsarət və xəstələnməsi ilə bağlı əlilliyi müəyyən edilmiş şəxslərə və ya onların vərəsələrinə birdəfəlik ödəmələr verilməsi proqramları icra olunub.

Muxtar respublikada şəhid ailə üzvlərinin və müharibə əlillərinin məişət şəraitinin yaxşılaşdırılması diqqətdə saxlanılır, onlar mənzil və avtomobillərlə təmin edilir. Nazirliyin məlumatında qeyd olunur ki, cari ilin yanvar-oktyabr ayları ərzində müvafiq kateqoriyadan olan 3 şəhid ailəsi üzvü və 5 Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxs mənzillə təmin olunub. Eyni zamanda 12 Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxsə avtomobil verilib. Noyabrın 13-də isə daha 3 İkinci Qarabağ müharibəsi şəhidinin ailəsinə, 14 qaziyə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılması zamanı sağlamlıq imkanlarını qismən itirmiş 1 nəfərə yeni mənzil təyin olunub, 5 qaziyə və 2 sağlamlıq imkanları məhdud şəxsə isə avtomobillər təqdim edilib. Hazırda muxtar respublika üzrə 109 şəhid ailəsi üzvünə və 75 Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş şəxsə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu tərəfindən 439 min 583 manat vəsait xərclənib. Həmçinin müvafiq kateqoriyadan olan şəxslərə mənəvi dəstəyin ifadəsi, mənzil-məişət şəraitləri, həmçinin gündəlik sosial qayğılarının nədən ibarət olmasını və bu istiqamətdə hansı qayğının göstərilə biləcəyini müəyyənləşdirmək üçün cari ilin ötən dövrü ərzində 59 şəhid ailəsi üzvü ünvanlarında ziyarət edilib.

**Nail ƏSGƏROV**

Şərur rayonunun mərkəzində və kəndlərində aparılan abadlıq-quruculuq işləri bölgənin görkəmini gözəlləşdirməklə yanaşı, əhalinin yaşayış şəraitini də yaxşılaşdırır. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayon mərkəzində –

## Quruculuq işləri rayonun görkəmini gözəlləşdirir



Heydər Əliyev prospektində zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının təməli ötən il atılıb. Hazırda "Arkoz" İnşaat Şirkəti tərəfindən tikinti işləri davam etdirilir. Bütün mərtəbələrdə qəlib beton, hörgü işləri başa çatdırılıb, binada daxili elektrik, su, kanalizasiya və istilik xətləri çəkilib. Binanın içərisində alçı-suvaq işləri davam etdirilir. Qeyd edək ki, Şərur şəhərinin girişində avtovağzal binasının yaxınlığında yerləşən istismar müddəti başa çatmış ikimərtəbəli yaşayış binalarının yerində zirzəmisi ilə birlikdə hər biri 7 mərtəbədən ibarət olacaq iki yaşayış binası da inşa olunur.

Əhaliyə göstərilən nəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi üçün yeni avtovağzal binasının tikinti-quraşdırma işləri yekunlaşdırılıb, həyətyanı sahədə abadlıq, asfalt örtüyü və elektrik transformatorunun quraşdırılma işləri tamamlanır.

Rayonun kəndlərində də quruculuq işləri diqqət mərkəzindədir. Belə ki, Ələkli və Xələcdə məscid, Tənənəm kəndində isə mərasim evi inşa olunur. Tənənəm kəndində həm də avtomobil yolunda təmir işlərinin və su xətlərinin çəkilişi davam etdirilir. Kənddəki Süleyman pirində də əsaslı təmir işləri başa çatdırılıb.

**Ramiyyə ƏKBƏROVA**

# Həssas əhali qruplarının özünüməşğulluğunun təşkili dövlət qayğısı əsasında həyata keçirilir

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda daim inkişaf edən, yenilənən sahələrdən biri də özünüməşğulluqdur. İqtisadi-sosial, mədəni siyasətimizin əsasını təşkil edən bu sahənin günün tələbləri səviyyəsinə qaldırılması, müasir inkişaf strategiyasının qurulması əsas amil kimi çıxış edir.*

Qeyd edək ki, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Banklar Assosiasiyası arasında həssas əhali qruplarının özünüməşğulluğunun təşkilinə köməklik göstərilməsi sahəsində əməkdaşlığa dair memorandum imzalanıb. Sənədə əsasən 2023-cü il ərzində 50 ailəyə özünüməşğulluq proqramı çərçivəsində aktivlərin verilməsi nəzərdə tutulub.

Qəbul edilən qərarın icrası istiqamətində görülən işlər, qarşıya qoyulmuş məqsədlərin həlli sahəsində atılan addımlar barədə daha ətraflı məlumat almaq üçün Dövlət Məşğulluq Agentliyi Naxçıvan Şəhər Şöbəsinin əməkdaşı ***Elvin Bağırlı*** ilə həmsöhbət olduq. O bildirdi ki, 2023-ilin cari dövrü ərzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən müvafiq altsistemdə qeydiyyatı aparılmış şəxslərin məşğulluq imkanlarının qiymətləndirilməsi aparılmışdır. Qiymətləndirmənin yekun nəticəsinə görə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 2692 nəfərin qeydiyyatı aparılmışdır. Onlardan 1646 nəfər kənd təsərrüfatı, 341 nəfər istehsal və xidmət, 233 nəfər isə digər (qeyri-standart) zərflər üzrə olmaqla, ümumilikdə, 2222 nəfər növbəlilik reyestrinə əlavə olunmuşdur. Həmçinin 1721 nəfərin proqrama cəlb olunması üçün şəraitinə ilkin baxış keçirilmişdir ki, onlardan 1295-i kənd təsərrüfatı istiqaməti, 227-si



istehsal və xidmət sahələri, 199-u isə qeyri-standart zərflər üzrə təşkil etmişdir. Müsahibimiz qeyd etdi ki, şəraitinə ilkin baxış keçirilmiş şəxslərdən 858 nəfər biznes təlimlərə uyğun hesab edilmiş, kənd təsərrüfatı istiqaməti üzrə 706 nəfər, istehsal və xidmət sahələri üzrə 152 nəfər təlimlərə cəlb olunmuşdur.

Təlimi uğurla bitirən 50 nəfər kommersiya bankları layihəsi çərçivəsində Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikasındakı İdarəsinə təqdim edilmiş, 1 avtotəmizləmə xidməti, 2 kiçik dülgər sexi, 3 kiçik dəmirçi sexi, 2 qadın gözəllik salonu, 2 avtomobil şinlərinin təmiri və bərpası, 1 un məmulatları istehsalı, 1 kiçik foto-atelye və 6 kiçik dərzi sexi zərfi üzrə avadanlıqlarla təmin edilmişdir. Müsahibimiz hazırda bu istiqamətdə işlərin davam etdirildiyini vurğuladı. Onu da qeyd etdi ki, proqrama cəlb ediləcək vətəndaşlar arasında şəhidlərin ailə üzvləri, müharibə veteranı və digər qruplar üstünlük təşkil edir.

Mövzumuzla əlaqəli olaraq avadanlıqlarla təmin edilmiş ailələrin bir neçəsi ilə həmsöhbət olduq. Naxçıvan şəhər sakini ***Sərxan Babayev*** deyir ki, üç ildir, həvəskar fotoqraf kimi fəaliyyət göstərirəm. Lakin daha da peşəkarlaşmaq və lazımlı avadanlıqları almaq üçün Dövlət Məşğulluq Agentliyinin Naxçıvan Şəhər Şöbəsinə müraciət etdim. Şöbə əməkdaşları bunu nəzərə alaraq məni kurslar və təlimlərə cəlb etdilər. Bu təlimləri uğurla keçdikdən sonra kompüter, printer, fotoaparat, işıqlandırıcı qurğu və digər zəruri avadanlıqlar verildi. Mən də bu peşəni sevərək əhaliyə keyfiyyətli xidmət göstərməkdən məmnunluq duyuram.



Müsahibimiz, Babək rayon Naxışnərgiz kənd sakini ***Sevil Zamanova*** deyir ki, bir müddət tikiş fabrikində dərzi kimi fəaliyyət göstərmişəm. Müəyyən səbəblərə görə iş fəaliyyətim yarıda qalmışdı. Bir müddət işləyə bilməmişdim. Qərara aldım ki, Dövlət Məşğulluq Agentliyinin Naxçıvan Şəhər Şöbəsinə müraciət edim. Müraciətim qeydə alındı və təlimlərə dəvət edildim. Təlimlər başa çatdıqdan sonra dərzilik üçün lazım olan avadanlıqlarla təmin olundum. Müsahibimiz bildirdi ki, hazırda yaşadığı kənddə dərzi kimi fəaliyyət göstərir. Gələcəkdə fəaliyyət sferasını genişləndirmək niyyətindədir.

*Həmsöhbətlərimizin fikirlərindən də aydın oldu ki, bu gün dövlət-xalq siyasətinin əsasında cəmiyyətin qayğıları ilə maraqlanmaq, onların rahatlığını nəzərə almaq üstünlük təşkil edir. Bu da günümüzdə insan amilinə verilən dəyərin bariz nümunəsidir.*

✍ **Bülbül QULİYEVA**

*Ailə təsərrüfatlarımız*

*Muxtar respublikamızda kənd təsərrüfatının əhəmiyyətli sahələrindən sayılan heyvandarlığın inkişafı üçün əlverişli təbii şərait mövcuddur. Bu sahədə məhsuldarlığın artırılması əhalinin ətə, südə, yuna olan tələbatının ödənilməsində, heyvanların cins tərkibinin yaxşılaşdırılmasında, yemdən, örüş və otlaqlardan səmərəli istifadə etmədə, emal sənayesinin inkişafında əhəmiyyətli rol oynayır.*

# Ənənəvi təsərrüfat sahəsinin inkişafı üçün əlverişli şərait yaradılıb



Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda heyvandarlığın inkişaf etdirilməsi, mütərəqqi kənd təsərrüfatı təcrübələrinin tətbiqi yolu ilə bu sahədə məhsul istehsalının artımına nail olunması gələcək istiqamət kimi müəyyənləşdirilib.

Bu gün muxtar respublikamızda heyvandarlığın inkişafına göstərilən dövlət qayğısı hesabına yeni heyvandarlıq təsərrüfatlarının yaradılması, mal-qara və heyvanların təbii yem bazası ilə təmin olunması məqsədilə torpaq sahələrinin suvarma suyuna olan tələbatının səmərəli ödənilməsi, təsərrüfat subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilir. Bu amillər diyarımızda heyvandarlıqla məşğul olan təsərrüfatçıların sayını artırır.





Babək rayonunun Gülşənabad kənd sakini, ailə təsərrüfatçısı Qaçay Nadirov 50 ildir, heyvandarlıqla məşğul olduğunu deyir: – Dədə-babadan qalan bu sahəni ailəmin də köməkliyi ilə davam etdirirəm. Kənddə böyümüşəm, naxıra-nobata getmişəm. Hazırda 1000-ə yaxın xırdabuynuzlu heyvanımız var. Bu sahəni inkişaf etdirməyim üçün mənə dövlət tərəfindən dəstək göstərilib, subsidiya verilib. Mən də heyvanların sayını artırmışam.

"Saxladığımız heyvanların qida, su və sağlamlıq ehtiyaclarını vaxtlı-vaxtında ödəyirik", – deyən müsahibim qeyd edir ki, bu sahədə qazandığı təcrübə ilə heyvanların sağlamlığını qorumağa çalışır. Mayiyul aylarında heyvanları otlaq sahələrinə, örüşlərə, yaylaqlara aparırıq. Bəslədiyimiz heyvanlardan keyfiyyətli və orqanik məhsullar – yağ, pendir, süd alırıq. Bu məhsulları, eləcə də yaxşıca bəslənilmiş heyvanları satışa çıxarırıq. Müsahibim onu da bildirir ki, gələcəkdə heyvanlarının sayını artıracaq.

Öyrənirəm ki, müsahibim həm də taxılçılıqla məşğuldur. Yonca, arpa, buğda əkir. Payızlıq taxıl əkinini 6 hektarda həyata keçirdiyini dedi.

Qeyd edək ki, bu sahəyə göstərilən davamlı dövlət dəstəyi bundan sonra da sağlam qida məhsullarının əldə edilməsinə, əhalinin tələbatının yerli məhsullar hesabına ödənilməsinə, ixrac imkanlarının yaranmasına və kənd əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsinə əlverişli şərait yaradacaq.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

# Zəhmətdən yoğrulan şirin bəhrə – *Naxçıvan balı*



Tanrının insan övladına bəxş etdiyi nemətlər içərisində bal xüsusi bir yerə malikdir. Təsadüfi deyil ki, uşaq dünyaya göz açan kimi ona ana südü verilməzdən əvvəl dodaqlarına bal vurulur. Kim isə xəstələnəndə və ya yaralananda xəstəyə ballı süd, çay verilir. Ən ağır yaralara bal qoyulur. Bu nemət elə bir xüsusiyyətə malikdir ki, həm qanaxmanın qarşısını alır, həm də zədələnən toxumada yaranan şişi aradan götürür. Saxlanma şərtləri və istifadə müddəti olmayan, 40-dan çox növü, çoxlu sayda mineral və vitaminlərlə zəngin olan, saysız-hesabsız müalicəvi xassələri özündə daşıyan qida məhsulu bal əvəzsiz bir nemətdir. Dədə-babadan qədim yurdumuzda arıçılıqla məşğul olanlar çox olub. Naxçıvan balı adla deyilib. Son illərdə də muxtar respublikada arıçılığın inkişafına göstərilən dövlət qayğısı, muxtar respublikamızın 2023-2027-ci illər sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş Dövlət Proqramı sahibkarların bu sahəyə olan marağını artırıb.

Uzun illərdir, arıçılıqla məşğul olan Kəngərli rayonu Çalxanqala kənd sakini ***Rəhman Ağalarov***la həmsöhbət olduqda təcrübəli arıçı balın faydalarından da danışaraq bildirir ki, dünya şöhrətli təbib İbn Sina vaxtilə deyib ki, əgər uzun ömür sürmək və cavan qalmaq istəyirsənsə, onda mütləq bal yeməlisən. Güləm, arı südü, bərəmum (vərəmum, dərdəmum), mum, möhür (balın qaymağı), bal arısının ölüsü, arı zəhəri və sair müxtəlif xəstəliklərin təbii dərmanlarıdır. Min bir dərdin dərmanı olan balı hasilə gətirən arılar təbiətin ən zəhmətkeş həşəratlarıdır. Arı körpə uşaq kimidir. Daim qayğı və baxım tələb edir. Məhsuldarlıqda ən mühüm şərtlərdən biri də köçəri arıçılıqdır. Arandakı sahibkarlar arılarını muxtar respublikanın, əsasən, ucqar dağ kəndlərinə köçürürlər. Buna görə də köçürmə üsulu ilə arı saxlamaqla insanlar ta qədimdən məşğul olublar. Aranda ən yaxşı vaxt ağacların çiçəkləmə dövrünə düşür. Arılar həm ağacların çiçəklərini tozlandırır, bol məhsul üçün şərait yaradır, həm də kifayət qədər şirə toplayırlar. Onların vasitəsilə tozlanan ağaclarda məhsuldarlıq 20-40 faiz artır.

Müsahibim onu da bildirir ki, müstəqillik qazandıqdan sonra muxtar respublikamızda arıçılığın da inkişafına diqqət xeyli artıb. Torpaq kəndlinin özünə verildikdən sona əkin sahələrinin xeyli genişləndirilməsi bu sahənin inkişafına müsbət təsir göstərib. Arıların ən çox bal topladığı yonca, taxıl əkinləri xeyli artırılıb. Örüş və qoruq sahələrinin çoxalması da arıçılığın inkişafında böyük rol oynayır. Elm sübut edir ki, bir hektar yonca sahəsindən arılar 70-80 kiloqram şirə toplaya bilir.

Həmsöhbətim onu da söylədi ki, arıçılıqda bal və keyfiyyətli məhsul əldə etmək zəhmət və qayğı tələb edir. Əlverişli təbii iqlim şəraiti, zəngin yem ehtiyatları bazası bu sahənin inkişaf etdirilməsinə geniş imkanlar yaradır. Artıq payız fəslinin ortalarındayıq. Arı ailələrinin qışlamaya hazırlanması üçün biz arıçılar uzun illərdir, arıçılığa məşğul olan böyüklərdən məsləhət alır, onların təcrübələrindən istifadə etməklə arı ailələrini qışa hazırlayırıq. Çünki arı ailə-



lərinin payızda qışlamaya hazırlanması, arıların qışlamadan çıxması və yazda sürətli inkişafı payız dövründə güclü və kifayət qədər yemi olan arı ailəsi yetişdirilməsindən çox asılıdır.

Həmsöhbətim onu da qeyd etdi ki, onun ailəsi 1988-ci ilə kimi Qərbi Azərbaycanın Əzizbəyov rayonunun Gabut kəndində yaşayıb. Onlar da deportasiyanın qurbanı olublar. Evlərindən, obalarından zorla köçürülüblər. Evləri yandırılıb, özləri qovulub. Azərbaycan yenicə müstəqilliyini əldə etməyə çalışdığı illərdə onlar da doğma yurdlarından Naxçıvana pənah gətirib. Çalxanqala kəndinə köçürülüblər. Həmin illərdə bu kənddə elə də çox insan yaşamırdı. Yavaş-yavaş, çətinliklə bir dam tikib yerləşiblər. Çox çətinliklərə sinə gərərək yaşayıb, torpaqdan ikiəlli yapışıb bu günlərə gəliblər: "Şükür Allaha, dövlətimiz bizi öz qanadı altına aldı. Kənddə müasir şərait yaradıldı. Məktəb, səhiyyə ocağı inşa olundu. Yaşayışımız, güngüzəranımız yaxşılaşdı. Dövlətimizin bizə qayğısından yararlanıb, öz təsərrüfatımızı yaratdıq. Dolanışığımızı qurduq".

Qərbi Azərbaycandan mənfur ermənilər tərəfindən didərgin salınan Kənan Ağalarov da Çalxanqala kəndində məskunlaşan digər həmyerliləri kimi zəhmətdən möhkəm yapışıb, torpağa bağlanaraq halal zəhmətinə tərini qatıb, bugünkü günə çatıb. Çəkdiyi zəhmət də itməyib, əvəzi ikiqat qayıdıb.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Turistlərin ən çox ziyarət etdiyi muzeydə tariximizin sorağı ilə



*Ölkə başçısının müvafiq Sərəncamı ilə qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da tarixi-memarlıq abidələrinin mövcud vəziyyətinin qiymətləndirilməsi, bərpa layihələrinin hazırlanması, tarixi eksponatların qorunması, arxeoloji araşdırmalar aparılması, tarixi-memarlıq abidələrinin UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına salınması üçün iş aparılması öz əksini tapır.*

Xalqımızın qədim tarixini, həyat tərzini, adət-ənənələrini özündə əks etdirən muzeylərdən biri də Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyidir. 1982-ci ildə Cümə məscidində fəaliyyətə başlayan Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi 1990-cı ilin may ayından etibarən öz fəaliyyətini XVII əsrə aid tarixi-memarlıq abidəsi olan Qeysəriyyə binasında davam etdirir. 2011-ci ildə dövlətin qayğısı ilə muzeyin yerləşdiyi Qeysəriyyə abidəsi əsaslı şəkildə bərpa olunub. Cəmi 150 eksponatla fəaliyyətə başlayan muzeyin fondunda hazırda 3680 eksponat mühafizə olunur ki, onlardan 1100-ə qədəri ekspozisiyada sərgilənir.



Ekspozisiyanın ilk guşəsində ibtidai insanların istifadə etdikləri daş əmək alətləri, ilk insanlar tərəfindən daşlar üzərində çəkilmiş rəsmlərin fotoları, Gəmiqaya haqqında müxtəlif kitablar və Gəmiqaya ərazisindən gətirilmiş qranit daşlar, Tunc dövrünə aid Xaraba Gilan tapıntıları nümayiş olunur. Guşədə Gilan şəhərinin dağ-qala bürclərinin fotoları, bu ərazidən tapılmış bəzək əşyası kimi istifadə olunan fraqmentlər və arxeoloq-alim Bəhlul İbrahimovun müəllifi olduğu “Kiran orta əsrlərdə” adlı kitabı yer alır.

Muzeydə XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Ordubad ərazisində geniş istifadə olunan gil və saxsı küpələr, saxsı su kuzələri, müxtəlif ölçülü çölməklər, nehrə, müxtəlif qida məhsullarını saxlamaq üçün küpələr və dənli bitkiləri saxlamaq üçün istifadə edilən böyük küp nümunələri insanların qədim məişət şəraitinin bariz nümunələridir. Növbəti vitrinlərdə Ordubad ustaları tərəfindən hazırlanan və zərif naxışlarla bəzədilmiş misgərlik məmulatları – suyun daşınmasında istifadə edilən satıllar, paxlava bişirilməsi üçün istifadə edilən məcməyi, ləyən, samovar, kömür manqalı, müxtəlifölçülü qazanlar və digər mis məişət əşyaları yer alır. Eksponatlardan o da məlum olur ki, Ordubad evlərinin qapıların da taqqılbab (kişiyə aid qapı zəngi) və zəncilbab (qadına aid qapı zəngi) geniş istifadə olunub.

Xalçaçılıq Ordubad şəhərində ən geniş yayılmış sənət növlərindən biri olub. Muzeydə Ordubad rayonunun Qoşadizə kəndində toxunmuş 1900-cü ilə aid və Ordubad rayonunun Əylis kəndində toxunmuş 1960-cı ilə aid olan xovlu xalçalar ordubadlı qadınların incə zövqünün, yüksək bədii təfəkkürünün məhsuludur. Guşədə cəhrə, kələfçə açan, yun darağı, həvə, kirkid və digər toxuculuq alət və ləvazimatları, eyni zamanda XX əsrə aid olan məfrəş diqqəti çəkir. Məfrəşlər, adətən, xovsuz xalçalardan hazırlanır, köç zamanı yüklərin daşınmasında istifadə olunurdu. Burada ən maraqlı eksponatlardan biri də oxanalı beşikdir. Oxanalı beşik Ordubad bölgəsinə məxsusdur.

Növbəti vitrinlərə müxtəlif dövrlərə aid mis və gümüş pul nümunələri diqqəti cəlb edir. Nümayiş olunan kağız pul nümunələrindən XX əsrin ortalarına qədər Azərbaycan ərazisində ticarət dövriyyəsində istifadə olunub. Ordubadın görkəmli şəxsiyyətlərinin fotoşəkilləri və yazdıqları əsərlərin sərgiləndiyi vitrində qabaqcıl maarifçi və əxlaq nəzəriyyəçisi Məhəmməd Tağı Sidqi, tarixi roman janrının banisi Məmməd Səid Ordubadi, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin həyatı və fəaliyyəti ilə tanış olmaq mümkündür.

Ekspozisiyanın növbəti guşəsində Ordubad rayonundan olan II Dünya müharibəsi veteranlarının fotoları, onlara aid orden və medallar, müxtəlif kitablar, həmçinin tank qoşunlarının komandiri, Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev və Əkbər Ağayevin fotoları da sərgilənir. 700 nəfəri əsirlikdən azad etdiyinə görə cəsur Vətən oğlu Əkbər Ağayevə Buhenvaldın əfsanəvi qəhrəmanı adı verilmişdir. Burada nümayiş olunan irihəcmli və dördkünc formalı sandığın hər iki tərəfində kilid yeri, qapaq hissəsində açar boşluğu, daxilində isə əlavə seyf vardır. 16 dillə açılıb bağlanır. Dəmir sandıq ərbab Rzaqulu Rzayev tərəfindən İsveçrədən gətirilib. Sandıq 347 kiloqram ağırlığındadır. Yanmayan dəmirdən hazırlanıb və içərisində kiçik seyf var. Sandığın diqqətçəkən xüsusiyyətlərindən biri onun 1 açarla və 16 dillə açılıb bağlanmasıdır.

Ordubadı dünyaya tanıdan məhsullardan biri də onun ipəyi olub. Mancanaq ipək istehsalında əsas alət hesab olunurdu. Belə ki, baramanı mancanağın içinə salaraq onu ip halına gətirərdilər. Guşədə nümayiş olunan kol üzərində barama, barama toxumlarını döymək üçün kiçik həvəngdəstələr, toxumları saxlamaq üçün barama paketləri, ipək kələfçələr, ipək saplar və digər eksponatlar ipəkçilik tarixindən geniş məlumat verir.



XVII-XVIII əsrlərə aid edilən Ordubad rayonundakı ən qədim məscidlərdən olan Təkeşiyi məscidinin sütunları üzərində müxtəlif ornamentlər təsvir olunub. Ekspozisiyada Təkeşiyi məscidinin eyvan sütunları, həmçinin məscidə aid iki ədəd əlyazma kitabı nümayiş olunur. Qədim əlyazma nümunələri muzeyin ən dəyərli eksponatlarındandır. Bu guşədə orta əsrlərə aid şəbəkə nümunələri, həmçinin Məmməd Səid Ordubadinin atası Hacı ağa Fəqir Ordubadinin evinin qapıları sərgilənir. Sonralar bu qapılar görkəmli şəxsiyyətin ev-muzeyinin qapıları olub. İki hissədən ibarət olan qapıların üzərində həkk olunmuş açar və qlobus elementləri dünyaya yalnız elmin gücü ilə sahib olmağın mümkünlüyünü ifadə edir. Taxtadan hazırlanmış digər ev qapıları üzərində şir başı təsvir edilmişdir. Digər bir guşədə Ordubad ərazisindən, Ağyurd və Piyəzbaşı qızıl yataqlarından tapılmış, tərkibində qızıl olan daşlar nümayiş olunur. Tədqiqatlar zamanı müəyyən edilib ki, bu yataqlardan əldə edilən qızıl Kəlbəcərdə çıxarılan qızıldan daha keyfiyyətlidir. Həmçinin burada Pəzməri, Parağa və Dırnıs kəndləri yaxınlığında olan yataqlarda qazıntı işlərini əks etdirən fotoşəkilləri görmək olur.

Musiqi alətləri xalqın tarixi, mədəni və mənəvi abidəsidir. Guşədə nümayiş olunan tar, kamança, qaval, qoşa nağara, tütək, zurna kimi musiqi alətləri insanların musiqi zövqünün nə qədər zəngin və dəyərli olduğunu bildirir. Milli geyimlər maddi mədəniyyətimizin mühüm elementlərindəndir. Ordubad rayonunda formasına və tikilmə üslubuna görə müxtəlif kişi və qadın geyimlərinə rast gəlinir. Muzeydə kişi və qadın milli geyimləri ilə yanaşı, Ordubad qadınları üçün xarakterik olan, bahalı parçalardan – məxmər, tirmə, şal, xara və zərxaradan tikilən küləcə, ən geniş yayılmış üst geyimlərindən biri olan arxalıq, müxtəlifrəngli rübənd və kələğayılar, həmçinin topuqlu qırçınlı tuman, yapıncı, araqçın və digər milli geyim nümunələri sərgilənir.

Ordubadlı xəttat-şair Usta Zeynal Nəqqaş nəqqaşlıq sənəti ilə yanaşı, ərəb-fars dillərini və klassik Şərq şeirini mükəmməl öyrənmiş, Ordubadda fəaliyyət göstərən “Əncüməni-şüəra” məclisinin ən fəal üzvlərindən olmuşdur. Onun Ordubadda və Təbrizdə bir sıra yaşayış evləri və abidələr üzərində çəkdiyi rəsmlər hələ də qalmaqdadır. Vitrində sənətkarın nəvələrinin əl işləri yer alır.

Növbəti guşə Vətənin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizə həsr olunub. İkinci Qarabağ müharibəsi tariximizin ən şərəfli səhifəsini təşkil edir. Vətən müharibəsində Naxçıvandan olan digər oğullar kimi, Ordubaddan da igidlərimiz də qəhrəmancasına mübarizə aparmış, öz vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirərək ərazi bütövlüyümüzün təmin olunmasında şücaət göstərmişlər. Ordubad rayonundan olan şəhidlərin fotoşəkilləri, şəxsi əşyaları, həmçinin şəhidlər haqqında yazılmış kitabları görürük. Yeni yaradılmış “Zəfər guşəsi”ndə Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müharibə dövründə xalqa müraciəti və işğaldan azad edilmiş rayonlara səfəri zamanı çəkilmiş fotoşəkilləri yer alır.

Muzeydə digər bir diqqəti çəkən məqam xalqımızın Ümummilli Lideri Heydər Əliyevə həsr olunan guşədir. Guşədə görkəmli dövlət xadiminin ordubadlılarla görüşü zamanı çəkilmiş fotoşəkillər, Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən müxtəlif kitablarla da tanış olmaq mümkündür.

*Bu gün Naxçıvana gələn yerli və xarici turistlər Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyini də ziyarət edir və oradan yüksək təəssüratlarla ayrılır. “Dünyanın bir çox muzeylərində olmuşam. Bu kiçik rayonda, bu tarix-diyarşünaslıq muzeyində gördüklərim mənə ayrı təsir bağışladı. Öz doğma torpağının tarixinə, mədəniyyətinə belə münasibəti alqışlamamaq mümkün deyildir”. Bir xarici qonağın muzeyi ziyarəti zamanı dedikləri fikirlər buna sübutdur. Beləliklə, tarixi-mədəni irsimizin qorunub yaşadılması, gələcək nəsillərə çatdırılması və təbliğində Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin rolu əvəzedilməzdir.*

✍ Güntac ŞAHMƏMMƏDLİ

# Qubalı müəllimin Naxçıvan sevgisi

*O, ömrünün 20 ilini bu sənətə həsr edib. O sənət ki gələcək nəsillərin musiqişünas kimi böyüməsində və tərbiyə olunmasında həlledici rol oynayır. 1984-cü ildə Quba şəhərində anadan olan **Aygün Babaverdiyeva** ilk təhsilini də elə dünyaya göz açdığı Quba şəhərində alır. Musiqiçi ailəsində böyüyən Aygün qarmon müəllimi olan atası Fuad Əhmədovun sənətinə olan sevgisindən bəhrələnərək musiqiyə uşaq yaşlarından könül verir. O elə ilk musiqi təhsilini də Quba Şəhər Uşaq İncəsənət Musiqi Məktəbində Fortepiano ixtisası üzrə alır. 1999-cu ildə Sumqayıt Şəhər Musiqi Kollecinə qəbul olunan Aygün xanım 2003-cü ildə həmin kollecin Fortepiano ixtisasını bitirərək Quba şəhərində ixtisası üzrə müəllim olaraq fəaliyyət göstərir. 2018-ci ildə isə Aygün Babaverdiyeva ikinci vətənim dediyi Naxçıvanın ali təhsil ocağı olan Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Musiqişünaslıq ixtisası üzrə təhsilini davam etdirir.*



Onun Naxçıvan sevgisi 2006-cı ildən başlayır. Hərbçi yoldaşı olan Aygün xanım 2006-cı ilin yanvar ayından xidməti vəzifəsini Naxçıvanda davam etdirən yoldaşı ilə bərabər Culfa rayonuna gəlir. İlk vaxtlar burada yaşamağa tərəddüd edən Aygün Babaverdiyeva indi Naxçıvanı özünə ikinci doğma vətən hesab edir. Aygün müəllim deyir ki, o zamanlar Naxçıvanın ən çətin günləri idi. Burada, ümumiyyətlə, qaz xəttindən söhbət gedə bilməzdi, işıqlar isə iki saatdan bir yanırdı. Hətta bəzən elə olurdu ki, gün ərzində heç yanmırdı. Şəhərdə doğulub böyüyən biri olaraq rayonda çətin şəraitdə yaşamaq, həqiqətən də, mənim üçün asan deyildi. Bəzən elə olurdu ki, yoldaşım işi ilə əlaqədar günlərlə evə gələ bilmirdi. Xüsusilə sərhəd kəndlərindən olan Şadada yaşayarkən atışmaların səsindən qorxu içində uşaqlarla bərabər səhərə qədər gözümüzə yuxu getmirdi. Aygün xanım deyir ki, bəlkə də, Naxçıvana bu qədər böyük məhəbbətlə bağlanmağım bu yerdə hər zəhmətə qatlaşmağımdan irəli gəldi. Axı insanın əmək verdiyi hər şey ona əziz olur. Naxçıvanda bir çox yerlərdə yaşamalı olduq. Demək olar ki, Naxçıvanın bütün şəhər, rayon, kəndlərini gəzmişəm. Burada çoxlu dostlar, doğmalar qazanmışam.

O deyir ki, 2013-cü ildə yoldaşımın hərbi xidməti ilə əlaqədar Şahbuz rayonuna köçməli olduq. Naxçıvandakı fəaliyyətimin uğurlu addımlarını da elə məhz Şahbuzda atdım. 2015-ci ildə Şahbuz Rayon Uşaq Musiqi Məktəbində fortepiano müəllimi olaraq işə başladım. Baxmayaraq ki, bir müddət sonra həmin məktəbdən ayrılaraq fəaliyyətimi Kəngərli rayon Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbində davam etdirdim, amma Şahbuz Musiqi Məktəbi mənə doğmadır, əzizdir. Çünki o məktəb mənə böyük mənəvi dəyərlər bəxş edib. Hazırda fəaliyyət göstərdiyim Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi isə mənim doğma, əziz ikinci evimdir. Burada olarkən zamanın necə keçdiyini hiss etmirəm. Şagirdlərimə fortepianonun sirlərini öyrətmək üçün böyük həvəslə hər gün Naxçıvan şəhərindən Qıvrağa yol alıram. Bəzən insanlar soruşur ki, hər gün bu qədər yolu gedib-gəlmək səni yormur? – Əlbəttə, yox. İnsan öz doğma evinə getməkdən, özünə övlad bildiyi şagirdlərinə hər gün yeni nəsə öyrətməyə can atmaqdan niyə də yorulsun?..



Bu musiqi məktəbində kollektivlə birlikdə böyük uğurlar qazanmışıq. Həm konsertmeyster kimi, həm pedaqoq kimi şagirdlərimlə birlikdə bir çox konkurslarda, konsertlərdə iştirak etmişik. Həmin tədbirlərdə bir çox mükafatlara layiq görülmüşük. Şagirdlərimlə birlikdə iştirak etdiyimiz bütün konsertlər rəğbətlə, qarşılanıb. Ən yaddaqalan uğurlarımızdan biri isə bu il may ayının 21-də Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan konsert proqramı oldu. Bu, Kəngərlidə ilk dəfə baş tutan solo konsert idi. Məktəbin müəllimi, tarzən Pünhan Həsənli ilə birlikdə apardığımız konsert Qıvraq qəsəbə Mədəniyyət Sarayında baş tutdu. Konsertin təşkilində Qıvraq qəsəbə Uşaq Musiqi Məktəbinin böyük dəstəyi oldu. Məktəbdə təşkil olunan tədbirlərdə hər zaman nümunəvi müəllim kimi təqdim edilməyim mənə mənəvi stimul oldu, qürur verdi. 300 nəfərlik izləyicisi olan konsert böyük maraqla qarşılandı. Bu konsertin baş tutması mənim üçün ikiqat sevincli bir hadisə olmaqla yanaşı, həm də məsuliyyətli bir iş idi. Ona görə ki, bu konsert Ulu Öndərin vətənində, dahi şəxsiyyətin yubileyinə həsr olunurdu. Şükürlər olsun ki, bu məsuliyyətli işin öhdəsindən layiqincə gələ bildik. Xoşbəxtəm ki, Ulu Öndərin 100 illik yubileyi burada çalışdığım dövrə təsadüf etdi. Elə bu doğma diyarda hər birimiz üçün əlamətdar bir ilə mən də öz fəaliyyətimlə töhfə verməyə çalışdım.

***“Mən yer üzündə müəllimdən yüksəli ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq”***, – deyən dahi şəxsiyyət Heydər Əliyevin bu dəyərli fikirlərini özünə işıqlı yol bilən, fəaliyyətini vicdanla yerinə yetirən Aygün müəllimin timsalında bütün müəllimlərə bu şərəfli yolda böyük uğurlar diləyi ilə...

✍ Gülcamal TAHİROVA

**Ümummilli Lider Heydər ƏLİYEV:** ***Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb.***




## ƏZİZ OXUCULARIMIZ!



Bir əsrdən çox tarixi, zəngin qəzetçilik ənənəsi ilə tanınan, Naxçıvan Muxtar Respublikasının gündəlik həyatının güzgüsü, dünənimizin salnaməsi, sabahımızın söz cığırı

*"Şərq qapısı" qəzetinə*

2024-cü il üçün abunə yazılışı kampaniyasına başladıq.

Şərqin qapısı Naxçıvanı "Şərq qapısı" ilə tanıyıb sevə bilərsiniz.

Qəzetə abunə yazılışı qiymətləri:
*İllik – 112. 50 AZN*
*6 aylıq – 56.25 AZN*

Qəzetə abunə yazılışı "Naxçıvanpoçt" publik hüquqi şəxsi tərəfindən aparılacaq.

***Əlaqə nömrələri: 545-07-67; 544-52-52***

## *"Debat Liqası"* layihəsinin qalibləri mükafatlandırılıb




Naxçıvan Regional Debat Mərkəzinin təşkilatçılığı, "Naxçıvan" Universitetinin dəstəyi ilə universitet tələbələri arasında 20 oktyabr-14 noyabr 2023-cü il tarixləri çərçivəsində "Debat Liqası" layihəsi təşkil edilib. Layihənin yekun mərhələsində çıxış edən "Naxçıvan" Universitetinin rektoru, dosent Anar Kazımov universitetdə tələbəyönümlü təhsil sisteminin həyata keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, artıq universitetimizdə gənclərin intellektual səviyyəsinin, bilik və məlumat bazasının möhkəmlənməsi üçün müxtəlif layihələr, intellektual oyunlar təşkil edilir. Təbii ki, gənclərin intellekt səviyyəsinin yüksəldilməsi üçün görülən bütün bu tədbirlər onların hərtərəfli inkişafı üçün çox vacibdir.

Sonra layihə rəhbəri Bağdagül Cəfərli layihə haqqında ətraflı məlumat verib.

Qeyd edək ki, liqada 10 komanda, hər komanda da isə 3 nəfər olmaqla, 30 tələbə iştirak edib. Yekuna əsasən "Yenilikçilər" komandası I, "Skyly" komandası II yerə layiq görülüb. Yer tutan komandalara diplom və medallar, layihənin idarə heyətinə isə diplom və sertifikatlar təqdim olunub.

***"Naxçıvan" Universitetinin mətbuat xidməti***

## Keyfiyyətli orqanik məhsullardan dadmaq istəyirsinizsə
## *meyvəçilik sektorunda yeni marka – "APF Aqro" MMC-yə müraciət edin*




Aqrar sahədə zəngin təcrübəyə malik "APF" Şirkətlər Qrupu Naxçıvan məhsullarının istehsal və ixrac potensialının, xarici bazara çıxış imkanlarının artırılması istiqamətində fəaliyyət göstərir. İşlər şirkətlər qrupunun aqrar sektorundakı təmsilçisi "APF Aqro" Məhdud Məsuliyyətli Cəmiyyəti vasitəsilə həyata keçirilir. Cəmiyyətin fəaliyyət radiusu Babək rayonunun Nehrəm qəsəbəsinə 12 kilometr məsafədə yerləşən, xam və münbit torpaqlarda, əkinqabağı tədqiqatların aparıldığı, keyfiyyətli su mənbələrinin təmin və ehtiyatların təşkil olunduğu əkin sahələrini əhatə edir.

Bağda ən məşhur alma və üzüm sortları yetişdirilir. Meteorologiya stansiyası və fərqli torpaq dərinliklərinə yerləşdirilmiş nəm sensorları ilə bağ və bağçalar 24 saat bütün iqlim göstəriciləri baxımından nəzarətdə saxlanılır. Ağac əkininin əsasını ənənəvi texnologiya təşkil edir, bunun da nəticəsində hər sort öz dadını və kommersiya keyfiyyətlərini tam üzə çıxarır. Bu amillər məhsuldarlığın müntəzəm şəkildə yüksəlməsinə səbəb olur. Sort seçimində amerikan tənək ana kökləri üzərində calaq edilmiş 10 fərqli tez, orta mövsüm və gec məhsul verən keyfiyyətli süfrə və kişmiş üzümü sortlarına üstünlük verilib. Ən məşhur alma sortlarından ***"Pink Lady", "Golden Reinders", "Granny Smith Challanger", "Fuji Kiku", "Galaval Gala", "Golden Delicious"***, üzüm sortlarından ***"Red Globe", "Victoria", "Crimson seedless", "Black Magic", "Michele Palieri", "Sultanina", "Cardinal", "Prima", "White Seedless Grape"*** və ***"Black Seedless Grape"*** yetişdirilir. Müasir üsullarla yetişdirilən ***"Sultani"*** çəyirdəksiz, ağ kişmiş, qara kişmiş kimi keyfiyyətli üzüm sortları da müasir qablaşdırma ilə bazara təqdim etmək üçün nəzərdə tutulur. Müasir kənd təsərrüfatının zəruri ehtiyacı olaraq üzüm və almada hava proqnozu, xəstəlik modelləri və suvarma üsulu sistemləri istifadə edilməkdədir.



Bağın vəziyyətini, meyvələrin yetişməsini izləmək, xəstəlikləri vaxtında müalicə etmək qarşıda duran əsas məsələlərdəndir. Ərazidəki çeşidləmə sexi və irihəcmli soyuducu kompleksindən ibarət meyvə saxlama anbarının əhəmiyyəti bu baxımdan xüsusi qeyd olunmalıdır. ***Türkiyə istehsalı olan soyuducu kamera*** meyvələrin uzun müddət saxlanmasını təmin edir. Meyvənin təhlükəsiz saxlanması üçün innovativ texnologiyalardan istifadə olunur, təravətini və şirəliliyini qorumaq üçün isə bütün mərhələlərdə saxlama prosesi idarə edilir. Soyuducu kameralara nəzarət avtomatlaşdırılıb və meyvələrdə baş verən bütün proseslərə gecə-gündüz nəzarət edilir. Dünya kişmiş istehlakındakı tələbat nəzərə alınaraq ***qurutma kamerası*** da quraşdırılıb.

"APF" Şirkətlər Qrupu muxtar respublikada əhalinin kənd təsərrüfatı və qida məhsullarına olan tələbatının ödənilməsi, müasir tikinti infrastrukturlarının yaradılması və xarici bazara çıxış imkanlarının artırılması yönündə fəaliyyət göstərən sahibkarlıq subyekti kimi iqtisadi inkişafa, əhalinin məşğulluğuna öz töhfəsini verməkdən böyük məmnunluq duyur, təmsil olunduğu sahələrdə faydalılıq, keyfiyyət prinsipini əsas tutur.

**✍ Nail ƏSGƏROV**



## *"Elmi əsərlər"* jurnalının növbəti sayı nəşr olunub




AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər" jurnalının yeni sayı çapdan çıxıb. İctimai və humanitar elm sahələri üzrə məqalələrin yer aldığı jurnal "Tarix və siyasət", "Arxeologiya və etnoqrafiya", "Azərbaycan dili", "Ədəbiyyat və folklor", "İncəsənət" bölmələrindən ibarətdir.

Jurnalda 42 tədqiqatçının "Heydər Əliyev və Azərbaycanın bütövlüyü məsələsi", "Qədim Azərbaycan torpağı – Zəngəzur", "Qərbi Azərbaycanın yetirmələri: Əziz Əliyev", "Naxçıvanlı Qullarağasıyevlər – Kəngərlilər haqqında", "Naxçıvan-şumer əlaqələrinin formalaşmasında Ubeyd mədəniyyətinin rolu", "Kültəpə mədəniyyətinin yayılma arealı yeni araşdırmalar işığında", "Naxçıvanın miladdan öncəki minilliklərə aid oronimlərində amorf-kök dil formaları", "Qədim türkcə rəsmi-hüquqi sənədlərin milli mənşəli leksikası", "Zəngəzur bayatılarında milli-etnik yaddaş", "Orta əsrlər Naxçıvan memarlığında ağacişləmə sənəti" və digər mövzulu məqalələri dərc olunub.

Həmçinin jurnalın "Kitablar, rəylər" bölməsində filologiya üzrə fəlsəfə doktoru, dosent Zülfiyyə İsmayılın "Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər" kitabı haqqında resenziyası ilə tanış olmaq mümkündür.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Taktiki-xüsusi təlim keçirilib



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti taktiki-xüsusi təlim keçirib. "Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı xilasedicilərin fəaliyyəti, axtarış və qəza-xilasetmə əməliyyatlarının aparılması zamanı idarəetmənin təşkili" mövzusunda keçirilən təlimin əsas məqsədi xilasedicilərin peşəkarlığının artırılması, axtarış-xilasetmə qayda və üsullarını məşq etdirməkdən ibarət olub.

Təlimin planına uyğun olaraq öncə idarəetmə təşkil edilib. Sonra xilasedicilər şərti "uçqun" altında qalan insanların axtarışını həyata keçirib, yaralılara ilkin tibbi yardım göstərib və səhiyyə müəssisələrinə təxliyə olunublar.

Növbəti təlim yerində hündür mərtəbəli binada "köməksiz vəziyyətdə qalan" insanlar xilas edilib. Həmçinin avtomobil qəzasında sıxılmış vəziyyətdə qalan zərərçəkmişlərə də köməklik göstərilib.

Keçirilən təlimdə verilən tapşırıqlar müvəffəqiyyətlə icra olunub, uğurla başa çatdırılıb.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Sədərək rayonunun Dəmirçi kənd sakini Novruzov İlham Hüseyn oğlunun adına olan JN-372 nömrəli, 10200088 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Gülşənabad kəndində Abbasov Namiq Tofiq oğlunun adına olan $89^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Gülşənabad kənd sakini Zeynalov Həsən Sevindik oğlunun adına olan JN-$094^A$ nömrəli, 10305038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Cəhri qəsəbə sakini Quliyeva Leylan Əli qızının adına olan JN-$2214^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Quliyev Rafət İlqar oğlunun adına olan MN-0055793 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

14 yanvar 2010-cu il tarixli 84 inventar nömrəli 104011000054-05101-083012 reyestr nömrəli və 5 yanvar 2010-cu il tarixli 81 inventar nömrəli 104011000054-05101-083009 reyestr nömrəli daşınmaz əmlakın texniki pasportları itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Süreyya Qədiməliyeva

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1000. Sifariş № 662